## Zərəngiz Dəmirçi Qayalı

# Qarşıla

Ucu şiş qayalı uca dağları,
Görməyə gəlmişəm, ana, qarşıla!
Mən səni içimdə ürək bilərdim,
İndi can bilmişəm, sona, qarşıla!

Dünya nə şirinmiş keçə bilmirsən?
Göz yaşı acıdır, içə bilmirsən….
Yaxçını-yamanı seçə bilmirsən,
Ürək, sən də yana-yana, qarşıla!

Əzəldən: “Can!”-dedi, bu dünya mənə,
Sonradan bürüdü dumana, çənə,
Atamı, anamı istərəm yenə,
Bəlkə, yuxularda dönə, qarşıla!

Dünya sirr  qazanı tökülsə dolmaz,
Hər düşünən kimsə ağıllı olmaz,
Cavanlıq keçəndi, axıra qalmaz,
Qocalıq gəlsə də, yenə qarşıla!

*Zərəngiz*, ədalət dəvə bonunda,
Yaxşı da, yaman da oynar oyununda!
Beşcə qarış yer ver, ana qoynunda,
Ey vətən, sığındım sənə, qarşıla!